# İLLİK HESABAT
# 2022
# ANNUAL REPORT

# M Ü N D Ə R İ C A T

*Müşahidə Şurası Sədrinin müraciəti*

*Baş Direktorun müraciəti*

*Struktur*

*Ümumi göstəricilər*

*Filiallar və müştərilərimizin uğur hekayələri*

*Gələcəyə baxış*

*Audit 2022-ci il hesabatı*

---

# C O N T E N T

*A letter of the Chairman of the Supervisory Board*

*CEO's letter*

*Structure*

*General indicators*

*Our branches and our customers' success stories*

*Vision of the future*

*Audit 2022 report*

## MÜŞAHİDƏ SURASI SƏDRİNİN MÜRACİƏTİ



*Hörmətli investorlar, müştərilər və tərəfdaşlar,*

*Biz 2022-ci il üzrə illik hesabatı təqdim etməkdən məmnunluq duyuruq. Bu hesabat, Azərbaycanın regionlarnda əhalinin rifah halının yaxşılaşdırılması missiyasını daşıyan “KredAqro”nun il ərzində bütün maliyyə və əməliyyat məqsədlərinə nail olmaq istiqamətində imza atdığı uğurları əks etdirir. 2022-ci il ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli islahatlar aparılmış, xərclər optimallaşdırılmış, yeni kredit məhsullarının tətbiqi nəticəsində faiz gəlirlərində müsbət dinamika əldə olunmuş, problemli kreditlərin həllində müsbət nəticələr əldə edilmiş, yerli maliyyə institutları ilə əməkdaşlığın genişləndirilməsinə uyğun olaraq cəlb olunmuş maliyyə resursları sayəsində kredit portfelinin həcminin artımına nail olunmuş və nəticə olaraq əvvəlki iki il ilə müqaisədə 2022-ci il mənfəətlə yekunlaşması ilə əlamətdar olmuşdur.*

*“KredAqro”nun ailə və kənd təsərrüfatlarını dəstəkləmək missiyasına yenidən qayıtmaq haqqında bizim qərarımız son dərəcə uğurlu olub və kənd təsərrüfatı, ticarət və xidmət sahələrinin kreditləşməsinin daha da artırılması ilə nəticələnib. Həmçinin daha etibarlı hesab edilən qızıl təminatlı Lombard kredit məhsulunun tətbiqi nəticəsində ümumi kredit portfelin keyfiyyət göstərcisinin yüksəldilməsi mümkün olmuş və qarşıdakı illərdə bu istiqamətdə işlərin davam etdirilməsi nəzərdə tutulmaqdadır. Biz müştərilərin cəlb edilməsi va saxlanması zərurətinə diqqət yetirməklə, “KredAqro”nun sosial məsuliyyət məqsədlərinin yerinə yetirilməsi şəraitində bu cür balansın qurulmasından çox məmnunuq. Xüsusi qeyd olunmalıdır ki, 2022-ci ildə müsbət nəticələrin əldə olunması “KredAqro”nun əsas dəyəri hesab etidi ixtisaslaşmış və yeni cəlb olunmuş əməkdaşların sayəsində mümkün olmuşdur, belə ki, təşkilat hər zaman öz əməkdaşlarının inkişafına töhvə verməklə yanaşı real nəticələrinə uyğun olaraq qiymətləndirilməsini həyata keçirməkdədir.*

*Real sektorun dəstəklənməsi istiqamətində aktiv fəaliyyətlərini davam etdirən “KredAqro” BOKT MMC ötən ilin sonunu xalis mənfəətlə başa vurmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 105.14% artıma nail olmuşdur. 2022-ci ilin yekunlarına görə, “KredAqro” BOKT MMC-nin cəmi aktivləri ötən ilin analoji dövrü ilə müqayisədə 17.64%, o cümlədən müştərilərə verilmiş kreditləri 17.59% artmışdır. Bu dövrdə əvvəlki ilin sonu ilə müqaisədə təşkilatın faiz gəlirləri 2 dəfə artmış, həmçinin digər müsbət göstərici olaraq gücləndirilmiş iş sayəsində problemli kreditlərin səviyyəsi 48% azalmışdır.*

*Təşkilatın maliyyə göstəricilərinin ötən ilin analoji dövrü ilə müqaisədə əhəmiyyətli müsbət dinamikası qarşıdakı illərdə də bu tendensiyanı qoruyacağı və gəlirlərinin artacağından xəbər verir.*

*Bizim mənfəət əmsallarımız ildən-ilə sağlam və sabit olaraq qalır və 2022-ci il ərzində rəhbərlik tərəfindən icra olunan xərclərə nəzarət prosesinin, yeni kredit məhsulların buraxılmasının və rəqabətli qiymətləndirmə siyasətinin müsbət təsirini nümayiş etdirir. “KredAqro” özünün əsas aktivlərinə - insan resurslarına sərmaya yatıraraq kreditləşmənin güclənməsi sahəsində təlimatlandırır və əməliyyat sistemlərini və prosedurlarını təkmilləşdirir.*

*Daha geniş mərhələdə “KredAqro” özünün yüksək səviyyəli fəaliyyəti sayəsində həm Azərbaycanda, həm də beynəlxalq miqyasda aparıcı mikromaliyyə təşkilatı qismində tanınıb. Biz öz nüfuzumuza ciddi yanaşırıq. Bu nüfuz bizi öz fəaliyyətimizi yüksək səviyyədə saxlamağa və müştərilərimizə göstərdiyimiz xidmətlərdə innovasiyalara sövq edir. Bu, bizim geniş əhatəli və uzunmüddətli məqsədlərimizin bir hissəsidir.*

*Hər zaman olduğu kimi, Sizin fikir və təkliflərinizi səbirsizliklə gözləyirik.*

*Hörmətlə,*

*Timur Y. Qusev,*
*Müşahidə Şurasının Sədri*

## A LETTER OF THE CHAIRMAN OF THE SUPERVISORY BOARD

*Dear investors, customers and partners,*

*We are pleased to present Annual Report 2022. This report reflects the accomplishments of KredAqro, which has the mission of improving the welfare of population in the regions of Azerbaijan, in achieving all financial and operational goals during the year. During 2022, significant reforms were carried out in all areas, costs were optimized, positive dynamics in interest income was achieved as a result of introduction of new credit products, positive outcome was obtained in solving non-performing loans, and due to financial resources attracted in accordance with extended cooperation with local financial institutions, the loan portfolio growth was achieved and as a result, compared to the previous two years, 2022 was completed with a profit.*

*Our decision to return to KredAqro's mission to support family farming and agriculture has been extremely successful and has resulted in further increase in lending to agriculture, trade and service sectors. Also, introduction of the more reliable gold secured lombard loan product ensured growth of quality indicator of the overall loan portfolio, and further efforts in this direction are expected in the coming years. We are very pleased that such a balance was established while achieving objectives of KredAqro's social responsibility focusing on the need to attract and retain customers. It should be particularly noted that achievement of positive results in 2022 was possible due to specialized and newly recruited employees considered to be the main value of KredAqro, so the organization always contributes to the development of its employees and evaluates them according to their actual performance.*

*Continuing its active efforts aimed at supporting the real sector, KredAqro NBCO LLC completed the last year with a net profit and achieved an increase of 105.14% compared to the corresponding period of the previous year. According to outcome of 2022, total assets of KredAqro" NBCO LLC increased by 17.64% compared to the same period of the previous year, including the loans provided to customers by 17.59%. During this period, compared to the previous year-end, the interest income of the organization doubled, and as another positive indicator was that the level of problem loans decreased by 48% due to intensive work.*

*The significant positive dynamics of the organization's financial indicators in comparison with the same period of the previous year indicates that this trend will be maintained in the coming years and the income will be increased.*

*Our profitability ratios remain sound and stable over the years and exhibit positive effect of management's cost control process, launched new loan product and competitive pricing policies throughout 2022. Investing in its main assets - human resources, KredAqro provides instruction in the field of increased lending and improves operational systems and procedures.*

*On a wider scale, KredAqro has been recognized as a leading microfinance organization both in Azerbaijan and internationally, thanks to its high-level activity. We take our reputation seriously. This reputation drives us to maintain a high level of performance and to introduce innovations in our customer service. This is a part of our broad, comprehensive and long-term objectives.*
*As always, we look forward to hearing your ideas and suggestions.*

*Sincerely Yours,*

*Timur Y. Gusev,*
*Chairman of the Supervisory Board*

# BAŞ DİREKTORUN MÜRACİƏTİ



Hörmətli həmkarlar, müştərilər və tərəfdaşlar,

Rəhbərlik etdiyim KredAqro Bank Olmayan Kredit Təşkilatı 2000-ci ildə təsis edilmişdir və yarandığı gündən etibarən davamlı olaraq ölkənin əksər regionlarında kiçik və orta sahibkarlıq subyektlərinə, o cümlədən ailə və ev təsərrüfatlarına maliyyə xidmətləri göstərməkdədir. Ümumi olaraq təşkilatın fəaliyyət göstərdiyi 23 ilə yaxın müddət ərzində ölkədə mövcud olan iqtisadi aktivlik səviyyəsindən aslı olaraq müxtəlif dövrlərdə filial şəbəkəsinə, aktivlərinə və kredit portfelinin həcminə görə bank olmayan kredit təşkilatları arasında ilk 3-lükdə yer almışdır.

2015-ci ilədək təşkilatın əsas maliyyə mənbələri xarici maliyyə institutlarından valyutada cəlb olunmuş vəsaitlər təşkil etmişdir və təbii olaraq təşkilat öz valyuta mövqeyni qormaq üçün müştərilərə verilən kreditlərin də əksəriyyəti xarici valyutada olmuşdur. Lakin, məlum olduğu kimi 2015-ci ildə 2 dəfə ardıcıl baş vermiş devalivasiya səbəbindən ümumi olaraq maliyyə-kredit sahəsində və xarici valyuta ilə fəaliyyət göstərən kredit təşkilatlarında olduğu kimi, təşkilatın da fəliyyət prosesində əhəmiyyətli risklər, əsasən də kredit və likvidlik riskləri yaranmışdır. Belə ki, kreditləri xaric valyutada olan müştərilərin ödəmə qabiliyyətləri minimum səviyyə enmiş, buna baxmayaraq, təşkilat devalvsiyanın ilk günlərndən başalayaraq yaranmış riskləri minimuma endirmək məqsədi ilə tədbirlər planı hazırlamış və dərhal bu planın icrasına başlamışdır. Tədbirlər planına, ilk növbədə kredit risklərini minimallaşdırmaq və yarana biləcək itgiləri nəzərə almaqla kreditləri xarici vayutada olan müştərilər üzrə bir neçə istiqamətdə güzəştlər və restruktrizasiya tədbirləri həyata keçirmiş, müştərilərlə birbaşa və davamlı işlər aparılmış, digər tərəfdən isə likvidlik riskinin azaldılması məqsədi ilə bəzi filiallar birləşdirmiş, xərclər optimallaşdırılaraq müəyyən qənaət əldə edilmiş və bununla da qismən kiçilməyə gedilmişdir. Qeyd etməliyəm ki, məhz bu tədbirlərin tətbiqi nəticəsndə, həmin dövrlərdə xarici maliyyə ilə çalışan bəzi kredit təşkilatlarından fərqli olaraq, təşkilat öz strukturunu qoruyub saxlmağa nail olmuş, bu sınaqlardan uğurla keçmiş və eyni zamanda xarici maliyyə institutlar qarşısında olan öhdəliklərini tam olaraq icra edə bilmişdir. Devalvasiya bütün iqtisadi sahələrdə olduğu kimi təşkilatın da iqtisadi inkişafına mənfi təsir etmiş, lakin digər tərəfədən təşkilat üçün əvəzsiz dəyərə malik olan böhran vəziyyətində uğurla faəliyyətini davam etdirmək təcrübəsini qazandırmşdır. Əminliklə deyə bilərəm ki, 23 il ərzində təşkilatın üzləşdiyi bu və ya digər formada iqtisadi böhranlar nəticəsində əldə etdiyi təcrübə, gəlcəkdə də baş vermə ehtimalı olan böhranlar zamanı təşkilatın dayanıqlı fəaliyyət göstərməsində böyük rolu olacaqdır.

Bildiyiniz kimi 2015-ci ildən sonrakı müddətdə maliyyə-kredit sahəsində mövcud olan problemlər səbəbindən əksər xarici maliyyə institutları yerli təşkilatlarla əməkdaşlığı minuma endirmiş və bu səbəbdən bugündək təşkilat əsasən öz vəsaiti və qismən yerli investisiya bazarından cəlb olunmuş vəsait hesabına öz fəaliyyətini davam etdirməkdədir. Son dövrlərdə iqtisadiyyata təsir edən qlobal və lokal problemlər, nümunə üçün pandemiya və ya müharibə şəraiti, dünya iqtisadiyyatında baş verən böhranlar və digər mənfi amillər səbəbindən təşkilat gələcək iqtisadi inkişafı baxımından gözləməyə mövqeyni seçmişdir. Lakin, 2021-ci il ərzində iqtisadi aktivliyin artması fonunda təşkilat 2022-2024-cü illər üçün 3 illik starteji inkişaf planını tərtib etmiş və hal-hazırda bu planın icrasını uğurla davam etdirməkdədir. Belə ki, 2022-ci ildə təşkilat kredit portfelinin artımına nail olmuş, gəlirlərdə müsbət dinamika əldə etmiş və regionlarda yalnız yığım istiqamətində fəliyyət göstərən 4 filialın işini tam olaraq bərpa etmişdir. Həmçinin ötən il ərzndə investisiya cəlbində KredAqro BOKT MMC-yə dəstək olan AzFinans İnvestisiya Şirkəti ilə uğurlu əməkdaşlıq münasibətləri qurulmuş və 1 mln. manat həcmində istiqraz buraxılışı qaydasında maliyyə resursu cəlb olunmaqla aktiv kredit portfelinin artımına nail olunmuşdur.

# CEO'S LETTER

Dear colleagues, customers and partners,

KredAqro Non-Bank Credit Organization I am in charge of was founded in 2000 and since its establishment it has continuously been providing financial services to small and medium-sized enterprises, including families and households, in most regions of the country. In general, for almost 23 years of its operation, the organization was ranked in the top 3 among non-banking credit organizations in terms of branch network, assets, and loan portfolio volume in different periods based on the level of economic activity in the country.

Until 2015, the main sources of finance for the organization were funds raised in foreign currency from foreign financial institutions, and obviously, most of the loans given to customers were foreign currency loans in order to protect the organization's currency position. However, as it is known, due to devaluation that happened twice in succession in 2015 significant risks, mainly credit and liquidity risks, arose in the field of finance and credit and credit institutions conducting foreign currency operations as well as in the course of operations of the organization in general. Thus, solvency of customers having their loans denominated in foreign currency has decreased to a minimum level, whereas the organization has developed an action plan aimed at minimizing the risks arisen from the first day of devaluation and has immediately started the implementation of this plan. According to the action plan, first of all, considering possible losses and minimizing credit risks, concessions and restructuring measures were implemented in several directions for customers having their loans denominated in foreign currency, direct and continuous work was carried out with customers, and on the other hand, in order to reduce liquidity risk, some branches were merged, certain savings have been achieved through optimizing expenses and thereby partial downsize was achieved. I should note that in particular, as a result of application of these measures, unlike some credit organizations dealing with foreign finance at that time, the organization managed to maintain its structure, successfully passed through challenges and at the same time was able to fully perform its liabilities to foreign financial institutions. As well as in all areas of economy devaluation negatively affected the economic development of the organization, but on the other hand, it gained the experience to continue successful operation in times of crisis, that is invaluable for the organization. I can say with confidence that experience gained as a result of one or another economic crisis faced by the organization over the past 23 years will play a big role in the sustainable operation of the organization during possible future crises.

As you know, due to financial and credit issues existing since 2015, most foreign financial institutions have reduced cooperation with local organizations to a minimum, and for this reason, up to now the organization continues to operate mainly with its own funds and partially with funds attracted from the local investment market. Due to global and local issues affecting the economy recently, for example pandemic or war conditions, crises in the world economy and other negative factors, the organization has chosen wait-and-see approach in terms of future economic development. However, amid increased economic activity in 2021, the organization developed a 3-year strategic development plan for 2022-2024 and is currently successfully implementing this plan. Thus, in 2022, the organization achieved an increase in its loan portfolio, achieved positive dynamics in revenues and fully restored operations of 4 branches involved only in collection in the regions. Also, successful cooperative relationship was established with AzFinance Investment Company that supported KredAqro NBCO LLC in attracting investment last year, and active loan portfolio growth was achieved through attraction of financial resources in the form of bond issuance in the amount of 1 min manats.

# *KredAqro TƏŞKİLATİ STRUKTURU*

# *KredAqro ORGANIZATIONAL STRUCTURE*

**Təsisçi / Founder**

**Müşahidə şurası / Supervisory Board**

*Baş daxili auditor*
*Chief Internal Auditor*

**Baş Direktor / CEO**

- *Maliyyə departamenti* — *Finance Department*
- *Risklərin idarəedilməsi departamenti* — *Risk Management Department*
- *Kredit departamenti* — *Credit Department*
- *Hüquq departamenti* — *Legal Department*
- *İnzibati işlər üzrə xidmət* — *Administrative Affairs Service*
- *İnformasiya Texnologiyaları departamenti* — *Information Technology Department*
- *İnsan Resursları xidməti* — *Human Resources Service*

**Filiallar / Branches**

| Gəncə | Quba | İsmayıllı | Cəlilabad | Bərdə | Tovuz | Qazax | Sumqayıt | Aqdaş | Masallı | Zaqatala |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ganja | Guba | Ismayilli | Jalilabad | Barda | Tovuz | Gazakh | Sumgayit | Agdash | Masalli | Zagatala |













## ÜMUMİ GÖSTƏRİCİLƏR

Sizə böyük məmnuniyyət və hörmət hissi ilə bildiririk ki, “KredAqro” BOKT MMC 2000-ci ildə Azərbaycanda Kənd Təsərrüfatının Kreditləşdirilməsi Layihəsi çərçivəsində yaranmışdır. Təşkilat hal-hazırda əsasən regionlarda kənd təsərrüfatı və digər sahələrdə sahibkar və xırda ailə kəndli təsərrüfatlarına maliyyə xidməti təqdim edilməsini uğurla həyata keçirməkdədir.

2000-ci ildən etibarən fəaliyyət göstərən “KredAqro” BOKT MMC ölkənin müxtəlif regionlarında 11 satış nöqtəsi ilə müştərilərinin xidmətindədir .Təşkilat 22 illik təcrübəsi ərzində müxtəlif dövrlərdə BOKT-lar arasında top 3-lükdə yer almışdır. Təşkilat öz müştərilərinə kiçik biznes, şəxsi istehlak, kənd təsərüffatı, lizinq və lombard kreditlərini təklif edir. Müştərilərə göstərilən xidmətlərin keyfiyyətini müntəzəm olaraq yüksəldilməsi və bu xidmətlərin çeşid və əhatə dairəsinin genişləndirilməsi hər zaman Təşkilatın əsas məqsədlərindən biri olmuşdur.

“KredAqro” BOKT MMC Azərbaycanın regionlarında olan ailə-kəndli təsərrüfatlarına , mikro və kiçik sahibkarlara kreditlərin verilişini təşkil etməklə onların təsərrüfatlarının iqtisadi imkanlarını artırmağa, həyat səviyyəsini yaxşılaşdırmağa yardım edir ki, bu da onların yaşadığı cəmiyyətin və həmçinin ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına səbəb olur.

Kənd təsərrüfatı, ticarət və digər iqtisadi fəaliyyət əsas götürülməklə Azərbaycanın əsas regionları üzrə kənd təsərrüfatı bazarında mövcud olan kiçik və mikro müəssisələrin tələblərinə uyğunlaşdırılmış Kiçik və Orta Biznes (SME) kreditləri verməklə, “KredAqro” BOKT MMC öz çoxillik loyal müştəri bazasını və portfelini genişləndirməkdədir.

Ən yüksək səviyyədə müştəri məmnuniyyətini qazanmağa imkan verən, zamanın tələblərinə uyğun və innovativ məhsul və xidmətlər təqdim edərək müştərilərin maliyyə ehtiyaclarını ödəmək hədəfimizdir. Personalla mütəmadi təlimlər keçirmək, karyera inkişafını dəstəkləmək yüksək ixtisaslı və etibarlı işçiləri uzun müddətli əməkdaşlıga cəlb etməyimiziə imkan verir və birlikdə inkişafımızı şərtləndirir. Gəlirlilik, sosial təsir və ətraf mühitin qorunması baxımından maliyyə, sosial və ekoloji sektorda yüksək nailiyyətlər əldə etməklə, beynəlxalq maliyyə standartlarına cavab verən və şəffaf təşkilat olaraq fəaliyyət göstərməyə hər zaman səy göstəririk və buna nail oluruq.

Təşkilatımız üçün 2022-cü il, ümumilikdə, yetərincə uğurlu il olmuş və qarşımıza qoyulan bütün hədəflərə nail olunmuşdur. Bu il təşkilatın stratefi inkişaf planında nəzərdə tutulan məqsədə doğru daha bir inamlı və stabil addım atdığını deyə bilərik. Ölkə iqtisadiyyatının inkişafı, Respublikada əlverişli biznes mühitinin yaradılması, həmçinin, beynəlxalq əlaqələrin daim genişləndirilməsi və möhkəmləndirilməsi maliyyə institutlarının tərəqqisinə zəmin yaradan əsas amillərdən olmuşdur. Ölkə rəhbərliyinin həyata keçirdiyi stabil iqtisadi siyasəti xarici investorların Azərbaycana marağını daha da artırmış, bu isə öz növbəsində uğurlu layihələri həyata keçirməyə yardım etmişdir. Ötən 2022-ci il ərzində Təşkilatımız bölgələrdə öz əhatə dairəsini genişləndirərək daha üç yeni filialını açmışdır. Kredit məhsulları və kredit kriteriyaları təkmilləşdirilərək daha münasib və əlverişli şərtlərlə kredit verilişi təmin olunmuşdur. İl ərzində kredit portfeli artmış, problemli kreditlərin həcmi beynəlxalq standartlara uyğun formada idarə edilmişdir. “KredAqro”ya maliyyə vəsaiti yerləşdirmək niyyətində olan və bu məqsədlə Təşkilatda müxtəlif formalarda audit aparmış bütün investorların yekun olaraq öz investisiyaların etməkləri də müsbət məqamlardandır.

Qeyd edək ki, “KredAqro” Bank Olmayan Kredit Təşkilatı 2022-ci ilin yekunlarına əsasən əsas maliyyə göstəriciləri üzrə müsbət nəticələr göstərmiş və bazarda mövqeyini qoruyub saxlamışdır. Real sektorun - əsasən də kənd təsərrüfatı sahələrinin dəstəklənməsi istiqamətində aktiv fəaliyyətlərini davam etdirən “KredAqro” BOKT MMC ötən ilin sonunu xalis mənfəətlə başa vurmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 2022-ci ildə mənfəət göstəriciləri üzrə 105.14% xalis artıma nail olmuşdur. Təşkilatın verdiyi kreditlərin sayının kreditləşmə istiqamətləri üzrə pay bölgüsü belə olmuşdur :

## GENERAL INDICATORS

We are pleased and honored to inform you that KredAqro NBCO LLC was established in 2000 under the Azerbaijan Rural Credit Project. Currently, the organization is successfully providing financial services to entrepreneurs and small family farms in agriculture and other fields in the regions.

KredAgro NBCO LLC, which has been operating since 2000, serves its customers with 11 sales points in different regions of the country. During its 22-year experience, the organization has been ranked in the top 3 among NBCOs at different times. The organization offers its clients small business, personal consumption, agricultural, leasing and lombard loans. Improving the quality of services provided to customers on a regular basis and expanding the range and scope of these services has always been one of the main goals of the Organization.

KredAqro NBCO LLC assists family farms, micro and small entrepreneurs in the regions of Azerbaijan to increase their economic capabilities and improve their living standards by managing granting of loans, which leads to development of the society in which they live and also development of non-oil sector of the country's economy.

KredAqro NBCO LLC is expanding its long-term loyal customer database and portfolio by providing Small and Medium-Sized Enterprises (SME) loans adapted to the requirements of small and micro enterprises in the agricultural market in the main regions of Azerbaijan based on agriculture, trade and other business operations.

Our goal is to meet the financial needs of our customers by providing timely and innovative products and services that enable us to achieve the highest level of customer satisfaction.

Conducting regular trainings for staff, supporting career development allows us to engage highly qualified and reliable employees for long-term cooperation and contributes to our joint development. We always strive to operate as a transparent organization that complies with international financial standards through achieving excellence in financial, social and environmental sectors in terms of profitability, social impact and environmental protection.

In general, 2022 was quite a successful year for our organization and all the goals set for us were achieved. We can say that this year the organization took another confident and sustainable step towards the goal envisaged in the strategic development plan. Development of the country's economy, establishment of a favorable business environment in the Republic, as well as continuous expansion and strengthening of international relations were among the main factors that provided a basis for the progress of financial institutions. Sustainable economic policy implemented by the country's leadership increased the interest of foreign investors in Azerbaijan, which in turn contributed to implementation of successful projects. During the past 2022, our organization expanded its scope in the regions and opened three new branches. Credit products and credit criteria were improved ensuring lending under more appropriate and favorable conditions. During the year, the loan portfolio increased, the volume of non-performing loans was managed in accordance with international standards. It is also a positive aspect that all investors intended to invest in KredAqro and for this purpose have conducted various types of audit in the Organization, make their own investments.

It should be noted that KredAqro Non-Bank Credit Organization had positive outcomes on the main financial indicators based on annual results 2022 and maintained its position in the market. KredAqro NBCO LLC, which pursue its active operations towards supporting the real sector - mainly areas of agriculture, ended the last year with a net profit and achieved a 105.14% net increase in profit indicators in 2022 compared to the appropriate period of the previous year. The distribution of the number of loans given by the organization was as follows:

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| *Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop)* | *1549* | *37.52%* |
| *Ticarət və Xidmət / Trade and Service* | *1098* | *26.59%* |
| *İstehlak / Consumer* | *1482* | *35.89%* |
| ***Cəmi / Total*** | *4129* | *100 %* |




*2022-ci ilin yekunlarına görə, "KredAqro" BOKT MMC-nin cəmi aktivləri ötən ilin analoji dövrü ilə müqayisədə 17.64%, o cümlədən müştərilərə verilmiş kreditləri 17.59% artmışdır. Bu dövrdə əvvəlki ilin sonu ilə müqaisədə təşkilatın faiz gəlirləri 2 dəfə artmışdır. Aktiv müştəri sayı il ərzində 18.86% artaraq aşağıdakı dinamikaya sahiblənmişdir.*

*According to the results of 2022, total assets of KredAqro NBCO LLC increased by 17.64% compared to the same period of the previous year, including loans given to customers increased by 17.59%. During this period, compared to the previous year end, the interest income of the organization increased twice. The number of active customers increased by 18.86% during the year and had the following dynamics.*




*Həmçinin digər müsbət göstərici olaraq kreditlərin sistemli idarəolunması, mərhələli iş prinsipləri və hüquqi tədbirlərin səmərəli təşkili nəticəsində problemli kreditlərin səviyyəsi 48% azalmışdır.*

*Also, as another positive indicator, the level of NPLs decreased by 48% due to systematic management of loans, step-by-step principles of action and effective legal arrangements.*



# SUMQAYIT FİLİALI

Sumqayıt filialı Bakı və Abşeron yarımadası, habelə Xızı rayonunu əhatə edən bölgələrdə maliyyə xidmətləri göstərir. Sumqayıt Azərbaycanın müasir sənaye mərkəzidir. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Abşeron və Xızı rayonlarında isə məşğul əhalinin əsas hissəsi heyvandarlıqla, habelə Bakı və Sumqayıt şəhərində fəaliyyət göstərən istehsal müəssisələrində digər istehsal, ticarət, ictimai iaşə, xidmət sahələrində çalışır və fərdi əməklə məşğul olurlar. Kreditlərin sahələr üzrə təsnifatı belədir.

# SUMGAYIT BRANCH

Sumgayit Branch provides financial services in Baku and Absheron Peninsula, as well as in the regions surrounding Khizi region. Sumgayit is a modern industrial center of Azerbaijan. Economic structure of the city includes chemical and petrochemical, metallurgical, machine-building, electric power, food and light industry, construction materials manufacturing enterprises. In Absheron and Khizi regions, the main part of the employed population is engaged in livestock farming, as well as in other production, trade, public catering, service fields in the manufacturing enterprises operating in Baku and Sumgayit, and are self-employed. The classification of loans by areas is as follows.

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 26 | 4.31% |
| Ticarət və Xidmət / Trade and Service | 260 | 43.12% |
| İstehlak / Consumer | 317 | 52.57% |
| **Cəmi / Total** | 603 | 100% |









***NƏCƏF XANIŞ OĞLU MUSAYEV***

*Nəcəf bəy 15 ildir ki, iri uynuzlu və xırda buynuzlu heyvanların saxlanması, alışı və satışı ilə məşğuldur. Nəcəf bəy ixtisasca traktorçudu və bu işlə məşğul olmazdan əvvəl uzun müddət traktorçu işləyib. Nəcəf bəy təşkilatımızdan ilk dəfə olaraq 2012-ci ildə 5000 AZN məbləğində kredit götürmüş və 40 baş xırda buynuzlu heyvan almış. 2013-cü ildə təkrar olaraq 7000 azn kredit götürərək 7 baş iri buynuzlu heyvan alaraq təsərrüffatını dahada genişləndirmişdir. Bundan sonra götürdüyü kreditləri 2014-cü ildə 8000 azn, 2017-ci ildə 2500 azn, 2018-ci ildə 4000 azn, 2021-ci ildə 5000 azn, və 2022-ci ildə təkrar olaraq 5000 azn kredit götürərək ümimilikdə təsrrüfatındakı heyvan sayının 20 baş iri buynuzlu 100 baş xırda buynuzlu olmaqla artmasına müvəffəq olmuşdur.*

***NAJAF KHANISH OGLU MUSAYEV***

*Mr. Najaf Musayev has been engaged in raising, buying and selling cattle and small ruminants for 15 years. Mr. Musayev is a tractor driver by profession, and he worked as a tractor driver for a long time before starting this work. Mr. Musayev took his first loan from our organization in the amount of 5000 AZN in 2012 and bought 40 small ruminants. In 2013, he took another loan in the amount of 7,000 AZN and expanded his farm by buying 7 heads of cattle. After that, he again took loans in the amount of 8000 AZN in 2014, 2500 AZN in 2017, 4000 AZN in 2018, 5000 AZN in 2021, and 5000 AZN in 2022 and succeeded in increasing livestock in his farm up to 20 heads of cattle and 100 heads of small ruminants.*





***RASİM VƏLİ OĞLU XUDUYEV***

*Rasim bəy 15 ildir ki, xırda buynuzlu heyvanların saxlanması, alışı və satışı ilə məşğuldur. Rasim bəy təşkilatımızdan ilk dəfə olaraq 2009-cu ildə 2000 USD məbləğində kredit götürmüş 15 baş xırda buynuzlu heyvan alaraq və təsərrüfatın genişləndirməsinə sərf etmişdir, təkrar olaraq 2010-cu ildə 3000 USD kredit götürərək 25 baş quzu alaraq böyüdüb satışnı təşkil etmi, Rasib bundan əlavə 2011-ci ildə 3000 azn, 2013-cü ildə 4000 azn, 2015-ci ildə 8000azn,2020-ci ildə 8000 azn kredit götürərək biznesinin genişləndirilməsinə nail olmuşdur. Rasim bəyin hal-hazırda 200-ə yaxın satış üçün xırda buynuzlu heyvanı vardır.*

*Rasim bəy bu işdən əldə etdiyi qazanc ilə özünə və övladlarına ev almış və həmçinin övladlarının təhsilinə sərf etmişdir. Təşkilatla əməkdaşlığı bundan sonra da genişləndirmək niyyətini bildirmişdir.*

***RASIM VALI OĞLU KHUDUYEV***

*Mr. Rasim Khuduyev has been engaged in raising, buying and selling small ruminants for 15 years. Mr. Khuduyev took his first loan of 2000 USD from our organization in 2009 and spent it on expanding the farm by buying 15 heads of small ruminants; in 2010 he took another loan of 3000 USD, bought 25 heads of lambs, breed them and arranged their sale. Moreover, Mr. Khuduyev managed to expand his business by taking loans of 3000 AZN in 2013, 4000 AZN in 2015, 8000 AZN in 2015, and 8000 AZN in 2020. Mr. Khuduyev currently has about 200 small ruminants for sale.*

*Mr. Rasim Khuduyev bought a house for himself and his children with the earnings from this business and also spent on his children's education. He expressed his intention to expand cooperation with the organization in the future.*





# BƏRDƏ FİLİALI

Filial Bərdə, Ağdam, Tərtər, Agcabədi rayonarını əhalisinə maliyyə xidmətləri təqdim edir. Məşğul əhalinin əsas hissəsi aqrar sahədə, rayonda fəaliyyət göstərən pambıq zavodlarında, ət kəsmə müəssisəsində, süd emalı zavodunda, Tikiş fabrikində və digər istehsal, ticarət, ictimai iaşə və məişət xidməti sahələrində çalışır. Kreditlərin sahələr üzrə təsnifatı belədir.

# BARDA BRANCH

The branch provides financial services to the population of Barda, Aghdam, Tartar, Agjabedi regions. The main part of the employed population is engaged in the agricultural sector, in the cotton mills operating in the region, in the slaughterhouse, in the milk processing plant, in the sewing factory, and in other areas of production, trade, public catering and consumer service. The classification of loans by areas is as follows.

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik)<br>Agriculture, Household and Family Farming (Livestock and Crop) | 102 | 40.32% |
| Ticarət və Xidmət / Trade and Service | 45 | 17.79% |
| İstehlak / Consumer | 106 | 41.90% |
| **Cəmi / Total** | 253 | 100% |









**İSFƏDİYAROV RƏŞAD VƏLİYƏDDİN OĞLU**

*Müştəri İsfəndiyarov Rəşad Vəliyəddin oğlu Laçın rayonun Kamallı kəndidə qeydiyyatdadır hazırda Bərdə rayon Çəmənlik kəndində yaşayır. Müştəri ilə 13 ildən artıqdır ki əməkdaşlıq edirik. Belə ki 2010-cu ildə 3000AZN, 2011-ci ildə 3000AZN, 2012-ci ildə 3000AZN, 2013-cü ildə 4000AZN, 2014-cü ildə 4000AZN, 2015-ci ildə 5000AZN, 2017-ci ildə 4000AZN, 2018-ci ildə 4000AZN, 2019-cu elədə 4500AZN , 2019-cu ilə 6000AZN, 2021-ci ildə 10000AZN, 2022-ci ildə 2500AZN kredit vermişik. Müştəri heyvandarlıq fəaliyəti ilə və heyvan alveri ilə məşğul olur. Əsasən iribuynuzlu heyvanların ətlik və südlük istiqamətlərində saxlanması və xırda buynuzlu heyvanların mal bazarlarında alveri ilə məşğul olur. Müştəri əvvəl kredit götürdükdə az miqdarda heyvanı var idi əlavə olaraq da heyvan alveri ilə də məşğul olurdu. Sonradan bizimdə verdiyimiz kreditlərlə birlikdə maiyyə vəziyyətini ilbəil artıraraq yaxşıya doğru inkişaf etmişdir. Belə ki bu illər ərzində müştəri məcburi köçkün olmasına baxmayaraq öz adına 1,27 ha pay torpaq sahəsi alıb rəsmiləşdirib, əvvəl alverə vaz 21011 markalı indi isə özünə məxsus Qazel maşını ilə gedir. Bu illər ərzində müştərinin bir çox müsbətə doğru dəyişikliklərinin şahidi olmuşuq. Əvvəl hevanların saxlanmsı üçün kiçik şəraitsiz tövləsi var idi ancaq indi müasir şəraitli geniş tövlə tikdirib 27 baş iribuynuzlu heyvanları, 30 baş xırda buynuzlu heyvanları var. Yaşadığı evi söküb yenidən restavrasiya edib müasir şəraitli ev tikib. Müştərinin maliyyə vəziyyəti çox yaxşıdır.*



**ELŞƏN ZAMAN OĞLU QULİYEV**

*Müştəri Quliyev Elşən Zaman oğlu Bərdə rayonu Qaradəmirçi kəndində yaşayır. Müştəri ilə 15 ildən artıqdır əməkdaşlıq edirik. Belə ki 2008-ci ildə 2000 USD, 2009-cu ildə 1500USD, 201-cu ildə 2000USD, 2011-ci ildə 2000AZN, 2012-ci ildə 3000AZN, 2013-cü ildə 4000AZN, 2014-cü ildə 5000AZN, 2015-ci ildə 5000AZN, 2016-cı ildə 2000AZN, 2017-ci ildə 2700AZN, 2018-ci ildə 1000AZN, 2019-cu ildə 2000AZN, 2020-ci ildə 2000AZN, 2021-ci ildə 2500AZN, 2022-ci ildə 2500AZN , 2022-ci 10-cu ayında 3000AZN kredit vermişik. Müştəri heyvandarlıq fəaliyəti ilə və heyvan alveri ilə məşğul olur. Əsasən ətlik istiqamətində bordaq saxlayır, südlük heyvanların isə əlverini edir sifarişlə Gürcütandan cins heyvanlar gətirib satışını həyata keçirir. Bundan əlavə əvvələr həftəlik olaraq mal bazarlarından danalar alıb rayondakı və yaxın rayonlardakı qəssablara satışını da həyata keçirib. Bu illər ərzində müştəridə müsbətə doğru bir çox istqamətlər ürzə irəliləyişin şahidi olmuşuq. Belə ki müştəri kiçik tövləsini genişləndirib müasir şəraitli böyük tövlə tikib heyvanlarının sayını artırıb hazırda 22 baş iribuynuzlu heyvanları var. Özüünü vaz 21010 markalı minik maşınını dəyişib mersedes c220 markalı maşın alıb, evini yenidən təmir elətdirib, qarşısında böyük çardaq vurdurub. İşini də genişləndirib əlavə olaraq Gürcüstanla şirkətlə müqavilə bağlayıb kəsim üçün onlara xırda buynuzlu heyvan alıb kəsiminə nəazrət edir oradan da gəlir əldə edir. Müştərini hazırda maliiyə vəziyyəti normaldır.*



***RASHAD VALIYADDIN OGLU ISFANDIYAROV***

*The customer Rashad Valiyaddin oglu Isfandiyarov is registered in Kamalli village of Lachin district, and currently lives Chamanlik village of Barda district. We have been cooperating with the customer for more than 13 years. Thus loan of 3000 AZN was provided in 2010, 3000 AZN in 2011, 3000 AZN in 2012, 4000 AZN in 2013, 4000 AZN in 2014, 5000 AZN in 2015, 4000 AZN in 2017, 4000 AZN in 2018, 4500 AZN in 2019, 6000 AZN in 2019, 10000 AZN in 2021, and 2500 AZN in 2022. The customer is engaged in livestock farming and livestock trade. He is mainly engaged in raising cattle for meat and milk and trading small ruminants in animal markets. When the customer took a loan before, he had a few animals and was also engaged in animal trading. Later, with the loans we gave, he improved his financial status year by year and developed for the better. Thus, during these years, despite being an internally displaced person, the customer bought and registered a 1.27 ha plot of land in his own name; he used to go shopping on VAZ 21011 car, and now he drives his own Gazelle car. Over the years, we have witnessed many positive changes in the customer. He used to have a small cattle barn with no conditions for raising animals, but now he has built a large stable with modern conveniences and has 27 heads of cattle and 30 heads of small ruminants. He demolished the house he lived in, restored it and built a house with modern conveniences. The customer is in a very good financial status.*



***ELSHAN ZAMAN OGLU GULIYEV***

*The customer Elshan Zaman oglu Guliyev lives in Garadamirchi village of Barda district. We have been cooperating with the customer for more than 15 years. Thus, we provided him a loan of 2000 USD in 2008, 1500 USD in 2009, 2000 USD in 2010, 2000 AZN in 2011, 3000 AZN in 2012, 4000 AZN in 2013, 5000 AZN in 2014, 5000 AZN in 2015, 2000 AZN in 2016, 2700 AZN in 2017, 1000 AZN in 2018, 2000 AZN in 2019, 2000 AZN in 2020, 2500 AZN in 2021, 2500 AZN in 2022, 3000 AZN in the 10th month of 2022. The customer is engaged in animal breeding and animal trade. He mainly keeps meat farms, and trades in milk animals - he brings breeding animals from Georgia to order and sells them. Moreover, he used to buy calves from animal markets on a weekly basis and sell them to butchers in the district and nearby districts. Over these years, we have witnessed the customer's progress to the better. Thus, the customer expanded his small barn and built a large barn with modern conveniences and increased the number of animals, and now he has 22 heads of cattle. He changed his VAZ 21010 car and bought Mercedes C220, renovated his house, and built a big shelter in front of it. He also expanded his business, signed a contract with a company in Georgia, buys them small ruminants for slaughter, supervises the slaughter, and earns income from it. The customer is currently in normal financial status.*



# QAZAX FİLİALI

# GAZAKH BRANCH

*Filialın fəaliyyət ərazisi Qazax və Agstafa rayonlarını əhatə edir. Burada kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, habelə nəqliyyat və anbar təsərrüfatı sahələri, nəqliyyat infrastrukturu mövcuddur. Kreditlərin sahələr üzrə təsnifatı belədir:*

*Operating area of the branch covers Gazakh and Agstafa districts. There are agriculture, forestry and fishing, as well as transport and warehousing businesses, and transport infrastructure. Classification of loans by areas is as follows:*

| **Məhsul / Product** | ***Aktiv kredit sayı / Number of active loans*** | ***%*** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik)<br>Agriculture, Household and Family Farming (Livestock and Crop) | *205* | *51.12%* |
| Ticarət və Xidmət / Trade and Service | *76* | *18.95%* |
| İstehlak / Consumer | *120* | *29.93%* |
| **Cəmi / Total** | *401* | *100%* |









***ELDƏNİZ HAMLET OĞLU MƏMMƏDOV***

*Təsərrüfat işlərini Ağstafa rayonu Pirli kəndində yaradıb. Müştərimiz 2020-ci ildə KredAQRO BOKT MMC-dən 3000 azn kredit götürüb, taxıl və günəbaxan əkib, qazancla əlavə torpaq alıb, əkinləri genişləndirib. Sonra 2021-ci ildə 4000 azn götürüb, Müştərimiz 2022-ci ildə 4500 azn kredit götürüb heyvandarlıqla, əkinçiliklə (taxıl və günəbaxan) məşğuldur. Təşkilatımızda üçüncü dövr müştərimizdir, heyvandarlığı inkişaf etdirib,hazırda 15 qoyun 10 quzusu var.*



***ELDANIZ HAMLET OGLU MAMMADOV***

*He established his farm in the Pirli village of Agstafa district. In 2020, our customer took a loan of 3000 AZN from KredAQRO NBCO LLC, planted grain and sunflowers, using the profit bought additional land plot, and expanded the crops. Then he took a loan of 4000 AZN in 2021, and in 2022 our customer took a loan of 4500 AZN. He is engaged in livestock and crop (grains and sunflowers) farming. He is a third-period customer in our organization, he has developed livestock farming and currently has 15 sheep and 10 lambs.*



***ZAUR ALLAHVERDI OĞLU SÜLEYMANOV***

*Qazax rayon Kosalar kəndində yaşayır. Təşkilatımızdan götürdüyü 3000AZN-lə cins inəklərin sayını artırıb, hazırda 4 inək 1 dana və 1 buzovu var. Arıçılığı inkişaf etdirmək niyyətindədir.*



***ZAUR ALLAHVERDI OGLU SULEYMANOV***

*He lives in Kosalar village of Gazakh district. Using 3000 AZN he took from our organization, he increased the number of breeding cows, and currently he has 4 cows, 1 calf and 1 beefling. He is going to develop beekeeping.*



***ZƏRMAİL ABDULLA OĞLU RZAYEV***

*Qazax rayon Xanlıqlar Kəndində yaşayır, uzun illər traktor idarə edib. Müştərimiz üç dövr (2018-ci ildə 5000AZN, 2021-ci ildə-3000AZN, 2022-ci ildə-3000AZN) təşkilatımızda kreditlər götürüb heyvandarlığını inkişaf elətdrib. Hazırda 3 inək, 2 dana, 45 keçi və 50 qoyunu var. Gələcəkdə də təşkilatımızla əməkdaşlıq etmək fikrindədir.*



***ZARMAIL ABDULLA OGLU RZAYEV***

*He lives in Khanliglar village of Gazakh district, and has driven a tractor for many years. Our customer took loans from our organization for three periods (5000 AZN in 2018, 3000 AZN in 2021, 3000 AZN in 2022) and developed his livestock farming. Now he has 3 cows, 2 calves, 45 goats and 50 sheep. He is going to cooperate with our organization in the future.*



## İSMAYILLI FİLİALI

Filial İsmayıllı, Göyçay, Qəbələ, Ucar rayonlarında maliyyə xidmətləri göstərir. Bölgədə əsasən əkinçilik, meyvəçilik və maldarlıq, habelə sənaye və turizm sahələri inkişaf etmişdir. Kreditlərin sahələr üzrə təsnifatı belədir:

## ISMAYILLI BRANCH

The branch provides financial services in Ismayilli, Goychay, Gabala, Ujar districts. Crop farming, fruit farming and livestock farming, as well as industry and tourism are developed in the region. Classification of loans by areas is as follows:

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 142 | 46.41% |
| Ticarət və Xidmət / Trade and Service | 65 | 21.24% |
| İstehlak / Consumer | 99 | 32.35% |
| **Cəmi / Total** | 306 | 100% |









***QARAKİŞİ LƏLƏKİŞİ OĞLUŞİRİNOV***

*Şirinov Qarakişi iri buynuzlu və xırda buynuzlu heyvanların saxlanması, alışı və satışı ilə məşğuldur. O, 20 ildir ki, bu işlə məşğul olur və davamlı olaraq öz təsərrüfatını genişləndirir.*

*Şirinov Qarakişi təşkilatımızdan ilk dəfə olaraq 2010-cui ildə 3000 ABŞ dolları məbləğində kredit götürmüş və iribuynuzlu və xırda buynuzlu heyvan alaraq öz təsərrüfatını artırmışdır. 2011-ci ildə 1300 ABŞ dolları, 2012-ci ildə 1500 AZN, 2013-cü ildə isə 4000 AZN kredit götürərək təsərrüfatını genişləndirmişdir. Sonuncu dəfə 2022-ci ildə özünün yaş həddi çox olduğu üçün oğlu Şiriniov Ramil Qarakişi oğlunun adına 4000 AZN kredit götürmüşdür.*

*Hazırda təsərrüfatında 130 baş xırdabuynuzlu və 14 baş iribuynuzlu heyvanları var. Bizimlə əməkdaşlığını bundan sonrada davam etdirəcəyini bildirir.*



***İSMƏT ÇİNGİZ OĞLU FAZİLLİ***

*Fazilli İsmət 3 ildir ki, iri buynuzlu heyvanların saxlanması, alışı və satışı ilə məşğuldur. Əvvəldən valideyinləri də bu işlə məşğul olublar indi özü bu sahəni davam etdirir.*

*Fazilli İsmət təşkilatımızdan ilk dəfə olaraq 2022-ci ildə 1500 AZN məbləğində kredit götürmüş və bu pulu heyvanlarının yem tədarükü üçün istifadə etmişdir. 2023-cü ildə təkrar olaraq 5000 AZN kredit götürmüşdür. Bu krediti heyvanların tövləsinin genişləndirilməsinə xərcləmişdir. Hazırda 36 baş inəyi, 12 baş danası və 13 baş buzovu var. İsmət bəy gələcəkdə təsərrüfatını dahada genişləndirmək fikrindədir və bunun üçün bizimlə daimi əməkdaşlıq edəcəyini bildirir.*



***SAMİR HACI OĞLU ŞİRƏLİYEV***

*Şirəliyev Samir 16 ildir ki, plastik qapı-pəncərə düzəldilməsi işi ilə məşğul olur. Əvvəllər bu işlə Bakı şəhərində məşğul olub. 5 ildən artıq müddətdir ki bu işlə İsmayıllı rayonunda məşğul olur. Şirəliyev Samir bəy təşkilatımızdan ilk dəfə olaraq 2022-ci ildə 1100 AZN məbləğində kredit götürmüş və qapı-pəncərə sexinə material alışına xərcləmişdir. 2023-cü ildə təkrar olaraq 5000 AZN kredit götürərək sexə pres aparatı almışdır. Samir bəy gələcəkdə bu işi dahada genişləndirəcəyini və bizimlə əməkdaşlığı davam etdirəcəyini bildirir.*



***GARAKISHI LALAKISHI OGLU SHIRINOV***

*Garakishi Shirinov is engaged in raising, buying and selling cattle and small ruminants. He has been doing this business for 20 years and is continuously expanding his farm.*

*Garakishi Shirinov took a loan of 3000 US dollars from our organization for the first time in 2010 and increased his farm buying cattle and small ruminants. Taking a loan of 1300 US dollar sin 2011, 1500 AZN in 2012, and 4000 AZN in 2013 he expanded his farm. He took the last loan of 4000 AZN in 2022 in his son's - Ramil Garakishi oglu Shiriniov - name because he was too old himself.*

*Currently, there are 130 heads of small ruminants and 14 heads of cattle in the farm. According to him he will continue cooperation with us.*



***ISMAT CHINGIZ OGLU FAZILLI***

*Ismat Fazilli has been engaged in raising, buying and selling cattle for 3 years. Earlier his parents were also engaged in this work, and now he continues this business himself.*

*Ismat Fazilli took his fist loan from our organization in the amount of 1500 AZN in 2022 and used this money to supply fodder for his animals. He took another loan of 5000 AZN in 2023. He spent this loan on expansion of the animal barn. Currently, he has 36 heads of cow, 12 heads of calf and 13 heads of beefling. Mr. Fazilli is going to expand his farm in the future and says that he will cooperate with us for this purpose.*



***SAMIR HAJI OGLU SHIRALIYEV***

*Samir Shiraliyev has been engaged in manufacturing plastic doors and windows for 16 years. He used to do this business in Baku. He has been doing this business in Ismayilli district for more than 5 years. Mr. Samir Shiraliyev took his first loan of 1100 AZN from our organization in 2022 and spent it on the purchase of materials for the Door and Window Shop. He took another loan of 5000 AZN in 2023 and bought a press machine for the shop. According to Mr. Shiraliyev he will expand this business in the future and continue cooperation with us.*



# MASALLI FİLİALI

Filial öz fəaliyyəti ilə Masallı, Lənkəran, Lerik, Astara bölgələrini əhatə edir. Bölgədə əkinçilik, tərəvəzçilik, sitrus meyvəçiliyi, iri buynuzlu mal qara təsərrüfatları vardır. Kreditlərin sahələr üzrə təsnifatı belədir:

# MASALLI BRANCH

The branch operations cover Masalli, Lankaran, Lerik, Astara districts. There are cropping, vegetable farming, citrus farming, cattle farming in the district. Classification of loans by areas is as follows:

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 124 | 38.27% |
| Ticarət və Xidmət / Trade and Service | 108 | 33.33% |
| İstehlak / Consumer | 92 | 28.40% |
| **Cəmi / Total** | 324 | 100% |








**ƏPRAHİM MİRZƏBALA OĞLU MƏMMƏDOV**

*Müştəri 10 ildən çoxdur ki, heyvandarlıqla məşğul olur. Müştəri əvvələr Masallı rayonu Şərəfə kəndində öz həyətyanı sahəsində yerləşən tövləsində 3 baş iribuynuzlu heyvan saxlayırdı. İl ərzində iribuynuzlu heyvanların balasını kökəldib satılması, süd satışı, dana alıb kökəldib satılması fəaliyyət ilə məşğul olurdu. İlk olaraq 2021-ci ilədə 1500 manat təşkilatdan kredit götürüb. Məqsəd dana alıb, kökəldib satmaq olub. 2022-ci ildə 2500 manat təşkilatdan kredit götürüb. Hal-hazırda təsərrüfatında 2 baş sağmal inək və 3 baş kökəltmə danası var. Müştəri iribuynuzlu heyvanların alqı-satqısı ilə məşğul olur və 2 baş danasında bu həftə mal-qara bazarında satıb. Müştəri təşkilatla əməkdaşlıqdan məmnunluğunu bildirərək, gələcəkdə "KredAqro"dan götürəcəyi kreditlə sağmal inək alacağını və süd satışı fəaliyyətini genişləndirməyi planlaşdırır.*

**APRAHIM MIRZABALA OGLU MAMMADOV**

*The customer has been engaged in livestock farming for more than 10 years. The customer used to keep 3 heads of cattle in his backyard barn Sharafa village of Masalli district. During the year, he was engaged in fattening and selling young cattle, selling milk, buying and fattening calves. He took his first loan of 1500 manats from the organization in 2021. He aimed to buy calves, fatten and sell them. He took a loan of 2500 manats from the organization in 2022. Currently, there are 2 heads of milking cows and 3 heads of fattening calves in the farm. The customer is a cattle dealer and he has sold 2 heads of calve at the livestock market this week. Appreciating cooperation with the organization, the customer is going to buy milking cows with the loan taken from KredAqro and expand milk sales.*





**İSA XALIQ OĞLU RƏHMANOV**

*Müştəri 15 ildən çoxdur ki, heyvandarlıqla məşğul olur. Müştəri əvvələr Masallı rayonu Şərəfə kəndində öz həyətyanı sahəsində balaca tövlədə 10-15 baş xırdabuynuzlu heyvan saxlayırdı. İlk olaraq 2020-ci ilədə 5000 manat təşkilatdan kredit götürüb. Məqsəd tövlə və samanlıq tikintisi və xırdabuynuzlu heyvan almaq olub.Həmin il heyvanlarının sayını 35-40 başa çatdırıb. 2022-ci ildə 6000 manat təşkilatdan kredit götürüb 30 baş ana qoyun və yem ehtiyyatı alıb. Hal-hazırda təsərrüfatında 88 baş xırdabuynuzlu heyvan var. Müştəri il ərzində təsərrüfatında olan xırdabuynuzlu heyvanların balasınının kökəldib satılması fəaliyyəti ilə məşğul olur. İl ərzində 60 başdan çox xırdbuynuzlu heyvan kökəldib satır. Müştəri təşkilatla əməkdaşlıqdan məmnunluğunu bildirərək, gələcəkdə "KredAqro"dan götürəcəyi kreditlə tövləsini genişləndirəcəyini və iribuynuzlu mal qaranının kökəldib satılması fəaliyyəti məşğul olacağını planlaşdırır.*

**ISA KHALIG OGLU RAHMANOV**

*The customer has been engaged in livestock farming for more than 15 years. The customer used to keep 10-15 small ruminants in a small barn in Sharafa village of Masalli district. He took his first loan of 5000 manats from the organization in 2020. He aimed to build a barn and a hayloft and to buy small ruminants. The number of animals increased to 35-40 heads that year. In 2022, he took from the organization a loan of 6000 manats and bought 30 heads of ewe and fodder. At present, there are 88 heads of small ruminants in the farm. During the year, the customer is engaged in fattening and selling the young of small ruminants in his farm. During the year, he fattens and sells more than 60 heads of small ruminants. Appreciating his cooperation with the organization, the customer is going to expand his barn with a loan from KredAqro and to be engaged in fattening and selling cattle.*





# AĞDAŞ FİLİALI

Filial Ağdaş Yevlax rayonlarında və Mingəçevir şəhərində maliyyə xidmətləri təklif edir. Əsasən hevvandarlıq və əkinçilik, habelə sanaye istehsalı mövcuddur. Kreditlərin sahələr üzrə təsnifatı belədir:

# AGDASH BRANCH

The branch offers financial services in Agdash, Yevlakh districts and Mingachevir city. There is mainly crop and livestock farming, as well as industrial manufacture. The classification of loans by areas is as follows:

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik)<br>Agriculture, Household and Family Farming (Livestock and Crop) | 199 | 47%3 |
| Ticarət və Xidmət / Trade and Service | 94 | 19.54% |
| İstehlak / Consumer | 188 | 39.09% |
| **Cəmi / Total** | 481 | 100% |








### *AİDƏ HABİL QIZI QƏDİROVA*

*Aidə xanım, 10 ildir ki, Ağdaş rayon Hüşün kəndində meyvəçilik (xurma bağları) və heyvandarlıqla məşğul olur. Hal-hazırda Aidə xanımın 4 yerdə ümumi sahəsi 2.46 ha olan xurma bağı və 12 baş iribuynuzlu heyvanı var.Müştəri deyir ki, əvvəl meyvəçilik fəaliyyətinə 300 ağacdan ibarət olan bağ sahəsi ilə başlamışıq. Hal hazırda 1200 ağacdan ibarət olan meyvə bağlarının olduğunu bildirir. Aidə xanım təşkilatımızdan ilk dəfə olaraq 11.09.2015-ci ildə 3000 AZN məbləğində kredit vəsaiti almışdır. Bundan sonra 2017-ci ildə 3000 AZN, 2019-cu ildə 1600 AZN, 2019-cu ildə 5000 AZN və 2022-ci ildə 7400 AZN məbləğində kredit vəsaiti əldə edibdir. Hal-hazırda təşkilatın aktiv müştərisidir.Müştəri deyir ki,sizdən 2017-ci ildə kredit götürüb boğaz iribuynuzlu heyvan alıb saxlayıb bala əldə edib 2018-ci ildə satışın həyata keçirib avtomobil alışı etmişik.Sonrakı dövrlərdə isə sizdən götürdüyümüz kredit ilə meyva bağlarının genişləndirilməsinə sərf etmişik. Aidə xanım müştəri xidmətinə görə Kred Aqro ailəsinə dərin təşəkkürünü bildirir və hər zaman Kred Aqro ilə əməkdaşlığ edəcəyini bildirir.*

### *AIDA HABIL GIZI GADIROVA*

*Ms. Aida Gadirova has been engaged in fruit farming (persimmon orchards) and livestock farming in Hushun village of Agdash district for 10 years. Currently, Ms. Gadirova has a persimmon orchard with a total area of 2.46 ha in 4 places and 12 heads of cattle. According to the customer they started their fruit farming business with a garden area consisting of 300 trees. She says that there are currently orchards with 1200 trees. Ms. Gadirova took her first loan of 3000 AZN from our organization on 11.09.2015. Then she took loans in the amount of 3000 AZN in 2017, 1600 AZN in 2019, 5000 AZN in 2019, and 7400 AZN in 2022. Currently, she is an active customer of the organization. According to the customer they we took a loan from us in 2017, bought and raised springing cattle, got calves, and in 2018 we sold and bought a car. In the following periods, we spend the loan got from you to expand orchids. Mrs. Gadirova expresses her deep gratitude to KredAqro family for their customer service and says that she will always cooperate with KredAqro.*





### *İNTİQAM YUSİF OĞLU GƏRAYEV*

*İntiqam bəy, 15 ildir ki, Ağdaş rayonu Şəmsabad kəndində kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olur. Müştərinin 4 ədəd 9 metrin 20 metrə pomidor, xiyar istilikxanası, 1 ədəd limon parniki var. Müştəri 0.5 ha torpaq sahəsində kələm əkini ilə məşğul olur. İntiqam bəy Kred Aqro Ağdaş filialının məsuliyyətli və qabaqcıl müştərilərindəndir. İlk kreditini təşkilatımızdan 3500 USD 2012-ci ildə əldə edibdir. Bundan sonra mütəmadi olaraq 2013-cü ildə 4400 USD, 2014-cü ildə 3300 USD, 2015-ci ildə 6000 AZN, 2017-ci ildə 2000 AZN, 2018-ci ildə 3500 AZN, 2019-cu ildə 3000 AZN və 2023-cü ildə isə 1000 AZN kredit vəsaiti əldə edibdir. Hal-hazırda aktiv müştərimizdir. Müştəri 2015-ci ildə bizdən əldə etdiyi 6000 AZN kredit vəsaiti hesabına həyətyanı sahədə 9 metrin 20 metrə limon parniki salmışdır. Müştəri limon parnikində 3 növdə limon yetişdirir. 2023-cü ildə əldə etdiyi 1000 AZN kredit vəsaitini 4 ədəd pomidor və xiyar istilikxanalarının təmiri üçün istifadə etmişdir. Müştəri təşkilatımıza səmərəli əməkdaşlığa görə təşəkkür edir. Bundan sonrada təsərrüfatını dahada genişləndirəcəyini və Kred Aqro ilə uğurlu əməkdaşlıq edəcəyinə inanır.*

### *INTIGAM YUSIF OGLU GERAYEV*

*Mr. Intigam Gerayev has been engaged in agricultural activity in Shamsabad village of Agdash district for 15 years. The customer has 4 tomato and cucumber greenhouses of 9 meters by 20 meters and 1 lemon greenhouse. The customer is engaged in growing cabbage in 0.5 ha of land. Mr. Gerayev is one of the responsible and leading customers of KredAqro Agdash branch. He took his first loan of 3500 USD from our organization in 2012. Then he regularly took loans of 4400 USD in 2013, 3300 USD in 2014, 6000 AZN in 2015, 2000 AZN in 2017, 3500 AZN in 2018, 3000 AZN in 2019 and 1000 AZN in 2023. He is currently our active customer. In 2015, the customer had a 9-meter by 20-meter lemon greenhouse built in the yard with the 6,000 AZN loan received from us. The customer grows 3 types of lemons in a lemon greenhouse. In 2023, he used a loan of 1000 AZN for repair of 4 tomato and cucumber greenhouses. The customer appreciated our organization for effective cooperation. He believes that he will further expand his farm and cooperate successfully with KredAqro.*





### *İNTİQAM ŞAMİL OĞLU RAMAZANOV*

*İntiqam bəy, 8 ildir ki, Ağdaş rayonu Türyançay qəsəbəsində meyvəçiliklə məşğul olur. Müraciətçinin hal-hazırda 2 ədəd xurma bağı və 1 ədəd gilas bağı var. Müraciətçi Kred Aqro-nun Ağdaş filailından 6 dəfə kredit vəsaiti əldə edibdir. 2018-ci ildə 2500 manat kredit vəsaiti əldə etməklə bu məbləği, 2022-ci ildə 8000 manata çatdırmışdır. Müraciətçi bizdən kredit əldə etdikdən sonra işini genişləndirmiş və əlavə kəndlərdən də, xurma alıb Rusiya Federasiyasına göndərmişdir. Sonuncu ədlə etdiyi krediti 3 ay müddətinə bağlayıbdır. Səbəb Rusiya Federasiyasında xurma satışında yüksək gəlir əldə etməsi olmuşdur. Təşkilatımıza operativliyə və düzgün qiymətlindirməyə görə dərin təşəkkürünü bildirir.Bu günə kimi bizimlə əməkdaşlıq etdiyinə görə məmnun olduğunu və bundan sonrada təsərrüfatının və gələcəkdə xurma biznesinin genişləndirmək üçün kredit vəsaiti lazım olduğu halda təşkilatımızla əməkdaşlıq edəcəyini bildirdi.*

### *INTIGAM SHAMIL OGLU RAMAZANOV*

*Mr. Intigam Ramazanov has been engaged in fruit farming in Turyanchay settlement of Agdash district for 8 years. The applicant currently has 2 persimmon orchards and 1 cherry orchard. The applicant received 6 loans from KredAqro Agdaş branch. In 2018, he took a loan of 2500 manats, and in 2022, he increased this amount to 8000 manats. After taking a loan from us, the applicant expanded his business and bought additional persimmon from villages and sent them to the Russian Federation. He repaid the last loan during 3 months. The reason was the high profit he gained from the sale of persimmon in the Russian Federation. He expressed his deep gratitude to our organization for promptness and proper assessment. He appreciates cooperation with us so far and will continue to cooperate with our organization if he needs credit to expand his farm and persimmon business in the future.*





# CƏLİLABAD FİLİALI

*Filial Cəlilabad və Biləsuvar rayonlarında müşərilərinə xidmət edir. Bölgədə kənd təsərrüfatı, xüsusən üzümçülük, taxılçılıq, kartof, çiyələk və s. əkilir, maldarlıq və sanaye, habelə emal sahələri inkişaf etmişdir. Kreditlərin sahələr üzrə təsnifatı belədir:*

# JALILABAD BRANCH

*The branch serves its customers in Jalilabad and Bilasuvar districts. Agriculture, in particular grape growing, grain growing, potato, strawberries, etc. planting, and livestock farming and industry, as well as processing areas are developed. The classification of loans by areas is as follows:*

| ***Məhsul / Product*** | ***Aktiv kredit sayı / Number of active loans*** | *%* |
|---|---|---|
| *Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop)* | *164* | *44.32%* |
| *Ticarət və Xidmət / Trade and Service* | *78* | *21.08%* |
| *İstehlak / Consumer* | *128* | *34.59%* |
| ***Cəmi / Total*** | *370* | *100%* |









**TALEH MƏMMƏDAĞA OĞLU ALIŞOV**

Müştəri 15 il təsərrüfatla məşquldur. Taleh bəy Cəlilabad rayonu Privolnoye kəndində təsərrüfatla məşqul olur. Əvvəllər torpaq sahəsini icarəyə götürüb kartof əkini ilə məşqul olurdu. İlk olaraq təşkilatımızdan 2014-cü ildə 3850 ABŞ dolları kredit götürmüşdü. İcarəyə götürdüyü torpaq sahəsində kartof məhsulu yetişdirməklə məşqul olurdu. 2016-cı ildə 4130 manat, 2018-ci ildə 3850 manat kredit götürüb icarədə olan torpaq sahəsindən yaxşı kartof məhsulu götürüb, məhsulu Rusiya Federasiyasına göndərməklə yaxşı mənfəət əldə etmişdir. Təsərrüfata olan həvəsi və götürdüyü mənfəət hesabına 2020-ci ildə Privolnoye kəndi ərazisində 2,64 hektar torpaq sahəsini nəqd pulla alaraq, həmin torpaq sahəsinin çıxarışını öz adına rəsmləşdirmişdir. Bundan sonra özünə məxsus olan torpaq sahəsində çiyələk əkini ilə məğqul olmağa başlamışdır. Çiyələk əkini çox xərc tələb etdiyinə görə Taleh bəy təşkilatımızdan 2021-ci ildə 6000 manat, 2022-ci ildə isə 8000 manat kredit götürüb. 2021-ci təsərrüfat ilində 2,64 hektar torpaq sahəsində becərdiyi çiyələk sahəsindən 16 ton, 2022-ci ildə isə 22 ton çiyələk məhsulu götürərək məhsulu soyuducusu olan yük avtomaşını ilə Rusiya Federasiyasinin şəhərlərinə satış üçün göndərmişdir. 2021-ci ildə çiyələk məhsulundan 9200 manat, 2022-ci ildə isə 18000 manat xalis mənfəət əldə etmişdir. 2021-ci ilə nisbətən çiyələk əkini üzrə ixtisaslaşdığına görə və həm də satış üçün çıxardığı məhsul kefiyyətli olduğuna görə 2022-ci ildə məhsuldarlığı artırmış, məhsulun əmtəə görünüşünə görə yaxşı qiymətə sataraq daha çox mənfəət əldə etmişdir. Əldə etdiyi mənfəət hesabına əvvəl istifadə etdiyi Rusiya istehsalı olan minik avtomaşınını təsərrüfat üçün işlətməklə daha komfortlu Koreya istehsalı olan minik avtomaşını alıb və qız övladına toy edib cehiz almışdır. Təşkilatımızdan götürdüyü krediti təsərrüfata sərf etməklə yüksək məhsuldarlıq və gəlir əldə etməsində götürdüyü kreditlərin böyük rolu olduğunu özü də təsdiqləyir.



**TALEH MAMMADAGA OGLU ALISHOV**

The customer has been engaged in farming for 15 years. Mr. Taleh Alishov is engaged in farming in Privolnoye village of Jalilabad district. He used to lease a plot of land and cultivate potatoes. He took his first loan of 3850 US dollars from our organization in 2014. He was engaged in growing potatoes on the leased land plot. He took a loan of 4130 manats in 2016, and 3850 manats in 2018 and harvested a good crop of potatoes from the leased land pot and made a good profit by sending the product to the Russian Federation. In 2020, he bought for cash 2.64 hectares of land pot in Privolnoye village due to his interest to farming and the profit he gained, and drew the extract of title for that land plot in his name. After that, he began strawberry farming on his own plot of land. As strawberry farming is cost consuming, Mr. Alishov took a loan of 6000 manats in 2021 and 8000 manats in 2022 from our organization. In 2021, he harvested 16 tons of strawberries from his 2.64-hectare field, and in 2022, he harvested 22 tons of strawberries and sent them for sale to the cities of the Russian Federation in a refrigerated truck. He made a net profit of 9200 manats in 2021 and 18000 manats in 2022 from the strawberry harvest. Compared to 2021, due to its specialization in strawberry farming and the quality of the products he sent for sale, he had increased productivity in 2022 and made more profit by selling the product at a good price due to its vendibility. Using his old Russian-made car for farming purposes he used the profit to buy a more comfortable Korean-made car and to buy a dowry for his daughter and arrange a wedding party. He himself confirms that spending the loans he took from our organization for farming purposes contributed a lot to obtaining high productivity and making profit.



**VÜSAL BAYRAMƏLİ OĞLU ƏMƏNOV**

Müştəri 20 il təsərrüfatl a məşquldur. Vüsal bəy Cəlilabad rayonu Muğan kəndində təsərrüfatla məşqul olur. Atasının adına olan 2,37 hektar pay torpaq sahəsində kartof əkini ilə məşqul olur. İlk olaraq təşkilatımızdan 2010-cu ildə 3000 ABŞ dolları kredit götürmüşdü. Torpaq sahəsində kartof məhsulu yetişdirməklə məşqul olur. 2016-cı ildə 12500 ABŞ dolları, 2020-ci ildə 5000 manat, 2022-ci ildə də 5000 manat kredit götürüb. 2021-ci məhsul ilində 30 ton, 2022-ci ildə 40 ton kartof məhsulu götürüb məhsulu Rusiya Federasiyasına göndərməklə 2021-ci ildə 15000 manat 2022-ci ildə isə 22000 manat xalis mənfəət əldə etmişdir. Əldə etdiyi mənfəət hesabına Muğan kəndi ərazisində özünə fərdi həyətyanı torpaq sahəsi alaraq həmin torpaq sahəsində mütərəqqi üsulla yaşayış üçün hər bir şəraiti olan iki mərtəbəli fərdi yaşayış evi tikmişdir. Vüsal bəy kartof sahəsi üzrə yaxşı ixtisaslaşdığına görə toxum növünü hər ilə Rusiya federasiyasından gətirməklə yeniləyir və aqrotexniki qaydalara vaxtında riayət etməklə hər il məhsuldarlığın artması hesabına gəlirləri də artmaqda davam edir.



**VUSAL BAYRAMALI OGLU AMANOV**

The customer has been engaged in farming for 20 years. Mr. Vusal Amanov is engaged in farming in Mughan village of Jalilabad district. He is engaged in potato cultivation in 2.37 hectares of land-grant in his father's name. He took his first loan of 3000 USD from our organization in 2010. He is engaged in growing potato crops in the plot of land. He took a loan of 12500 USD in 2016, 5000 manats in 2020, and 5000 manats in 2022. Harvesting 30 tons of potatoes in 2021 and 40 tons in 2022 and sending them to the Russian Federation, he made a net profit of 15000 manats in harvest year 2021 and 22000 manats in harvest year 2022. He used the profit he gained to buy an infield plot of land for himself in Mughan village and to build on that plot of land applying best practices a two-story detached house with all conveniences for living. As Mr. Amanov is well specialized in the field of potatoes, he renews the seed type every year bringing it from the Russian Federation, and timely following agrotechnical rules, his profit continuously increases due to the increase in productivity every year.



# TOVUZ FİLİALI

Tovuz rayonunda əkinçilik, xüsusən üzümçülük və xurma istehsalı, iri və xırda buynuzlu heyvandarlıq sahələri inkişaf etmişdir. Kreditlərin sahələr üzrə təsnifatı belədir:

# TOVUZ BRANCH

In Tovuz district, crop farming, in particular viticulture and persimmon production, cattle and small ruminants farming are developed. The classification of loans by areas is as follows:

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 169 | 41.52% |
| Ticarət və Xidmət / Trade and Service | 76 | 18.67% |
| İstehlak / Consumer | 162 | 39.80% |
| **Cəmi / Total** | 407 | 100% |









### ***ƏLİYEV ANAR NƏSRƏDDİN OĞLU***

*Anar bəy, 12 ildir ki, Tovuz rayon Düz Cırdaxan kəndində əkinçilik ilə (taxılçılıq və yonca əkini) məşğuldur. Həmçinin Anar bəy Azərbaycan Dəmir Yolları QSC-də işləyir. İşinin növbəli olması ona rahatlıqla təsərrüfatını idarə etməyə imkan verir. Anar bəy ilk dəfə təşkilatımızdan 2014-cü ildə 5000 AZN məbləğində kredit götürmüş və həmin vəsaiti təsərrüfatının genişləndirməsinə sərf etmişdir. Daha sonra mövsümü xərclərinə uyğun olaraq 500 manat, 7500 manat və 500 manat olmaqla daha 3 dəfə kredit almışdır və həmin vəsaitləri də əkinçilik təsərrüfatının genişləndirilməsinə sərf etmişdir. Anar bəyin bu sahədə bilik və bacarığı ilə bərabər təşkilatımızdan əldə etdiyi maliyyə dəstəyi sayəsində O, bu təsərrüfatdan gözlədiyi gəliri əldə etmişdir. Bu işdən əldə etdiyi qazancı evinin təmirinə sərf etmişdir. Təşkilatla əməkdaşlığı bundan sonra da genişləndirmək niyyətində olduğunu bildirmişdir.*

### **ANAR NASRADDIN OGLU ALIYEV**

Mr. Anar Aliyev has been engaged in farming (grain and lucerne cultivation) in Duz Jirdakhan village of Tovuz district for 12 years. Mr. Aliyev also works at Azerbaijan Railways CJSC. The shift work allows him to easily manage his farm. Mr. Aliyev took his first loan of 5000 AZN from our organization in 2014 and used the funds to expand his farm. Then he took three loans in the amount of 500 manats, 7500 manats and 500 manats according to seasonal expenses and used those funds to expand his crop farming. Due to the financial support received from our organization along with Mr. Aliyev's knowledge and skills in this field, he gained the expected income from this farm. He used the profit from this business to repair his house. According to him he is going to expand cooperation with the organization in the future.





### ***HƏSƏNOV ZAHİD ƏSƏD OĞLU***

*Zahid bəy, 10 ildir ki, Tovuz rayon Alakol kəndində əkinçilik, bağçılıqla və heyvandarlıqla məşğuldur. Əvvəllər Zahid bəy şəxsi Kamaz markalı yük maşını ilə yükdaşıma xidməti göstərirdi və ot bağı (pres) satışı ilə də məşğul idi. Hal hazırda fəaliyyət sahəsini daha da genişləndirib. Zahid bəy ilk dəfə təşkilatımızdan 2018-ci ildə 3000 AZN məbləğində kredit götürmüş və həmin vəsaiti təsərrüfatının genişləndirməsinə sərf etmişdir. Daha sonra mövsümü xərclərinə uyğun olaraq 2019-cu ildə 8000 manat, 2020-ci ildə 2500 manat və 2022-ci ildə 6000 manat olmaqla daha 3 dəfə kredit almışdır və həmin vəsaitləri də əkinçilik, heyvandarlıq və bağçılıq təsərrüfatının genişləndirilməsinə sərf etmişdir. Hal hazırda Zahid bəyin 3 baş iri buynuzlu 5 baş xırda buynuzlu heyvandarlıq təsərrüfatı, 0.47 ha əkinçilik təsərrüfatı və 0.20 ha xirnik bağı vardır.Həmçinin şəxsi Kamaz markalı yük maşını ilə yükdaşıma xidməti göstərir və ot bağı (pres) satışı ilə də məşğul olur.*

*Zahid bəyin bu sahədə bilik və bacarığı ilə bərabər təşkilatımızdan əldə etdiyi maliyyə dəstəyi sayəsində o, bu təsərrüfatdan gözlədiyi gəliri əldə etmişdir. Bu işlərdən əldə etdiyi qazancı evinin təmirinə sərf etmişdir. Təşkilatla əməkdaşlığı bundan sonra da genişləndirmək niyyətində olduğunu bildirmişdir.*

### ***ZAHID ASAD OGLU HASANOV***

*Mr. Zahid Hasanov has been engaged in corp farming, horticulture and livestock farming in Alakol village of Tovuz district for 10 years. Mr. Hasanov used to provide cargo transportation services with his own Kamaz truck and was also engaged in the sale of hay bales (press). Currently, he has expanded its field of activity even further. Mr. Hasanov took his fist loan of 3000 AZN from our organization in 2018 and used the funds to expand his farm. Then according to seasonal expenses he took 3 more loans of 8000 manats in 2019, 2500 manats in 2020 and 6000 manats in 2022, and used those funds to expand of crop farming, livestock farming and horticulture. Currently, Mr. Hasanov owns a livestock farm of 3 heads of cattle and 5 heads of small ruminants, 0.47 ha crop farm and 0.20 ha persimmon orchard. He also provides cargo transportation service with his own Kamaz truck and is also engaged in the sale of hay bales (press).*

*Due to financial support received from our organization along with Mr. Hasanov's knowledge and skills in this field, he got the expected income from this farm. He used the profit he gained from these businesses to repair his house. According to him he is going to expand cooperation with the organization in the future.*





# QUBA FİLİALI

*Filialın fəaliyyət zonası Quba, Qusar, Xaçmaz, Şabran rayonlarını əhatə edir. Əsasən meyvəçilik, tərəvəz istehsalı, meşə təsərrüfatı, balıqçılıq, emal sahələri, habelə heyvandarlıq və sanaye sahələri vardır. Kreditlərin sahələr üzrə təsnifatı belədir:*

# GUBA BRANCH

*The activity area of the branch covers Guba, Gusar, Khachmaz, and Shabran regions. There are mainly fruit farming, vegetable production, forestry, fishing, processing areas, as well as livestock and industrial areas. The classification of loans by areas is as follows:*

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 178 | 42.38% |
| Ticarət və Xidmət / Trade and Service | 118 | 28.10% |
| İstehlak / Consumer | 124 | 29.52% |
| **Cəmi / Total** | 420 | 100% |









***QARAYEV HACIBABA***

*Qarayev Hacıbaba Quba rayonu 1-ci Nügədi kəndində yaşayır. O, 2016-cı ildən "Kredaqro BOKT" MMC-nin müştərisidir və Təşkilatdan 4 dəfə kredit almışdır. Aldığı kreditlərlə ailə biznesi qurmağa müvəffəq olmuşdur. Belə ki, özünə məxsus və icarəyə aldığı torpağda 2 ha gilas bağı və 1 ha alma bağı salmış,həyətində qəssab dükanı tikmişdir. Hazırda ət satışı ilə məşğul olmaqla yanaşı kənd təsərüfatı texnikaları ilə sahibkarlara xidmət göstərir.*



***ASLANOV KAMRAN ŞƏMSƏDDİN OĞLU***

*Aslanov Kamran Şəmsəddin oğlu Quba rayonu, 2-Nügədi kəndində yaşayır.O 2013-cü ildən "Kredaqro BOKT" MMC-nin müştərisidir və Təşkilatdan 6 dəfə kredit almışdır. O təşkilatdan aldığı kreditlər hesabına 3 ha torpaqda tədricən meyvə bağları salmışdır. Nəticədə onun hazırda 1,0 ha gilas, 1 ha gavalı və 1 ha alma bağı vardır.*



***BƏKDƏMİROV SADIQ KAMİL OĞLU***

*Bəkdəmirov Sadıq Kamil oğlu Xaçmaz rayonu, Arzu kəndində yaşayır. O 2012-cü ildən "Kredaqro BOKT" MMC-nin müştərisidir və Təşkilatdan 8 dəfə kredit almışdır. O təşkilatdan aldığı kreditlər hesabına 2 ha torpaqda tədricən meyvə bağları salmışdır. Nəticədə onun hazırda 0,5 ha alma, 0,5 ha armud, 0.5 ha gavalı və 0.5 ha fındığ bağı vardır.*



***HAJIBABA GARAYEV***

*Hajibaba Garayev lives in the 1st Nugadi village of Guba district. He has been a customer of KredAqro NBCO LLC since 2016 and received 4 loans from the organization. Using the loans he received he managed to establish a family business. So, he planted 2 ha of cherry orchard and 1 ha of apple orchard on his own and leased land, and built a butcher shop in his yard. Currently, in addition to selling meat, he provides services to entrepreneurs with agricultural machinery.*



***KAMRAN SHAMSADDIN OGLU ASLANOV***

*Kamran Shamsaddin oglu Aslanov lives in 2-nd Nugadi village of Guba district. He has been a customer of KredAqro NBCO LLC since 2013 and received 6 loans from the organization. Using loans received from the organization he gradually planted orchards on 3 hectares of land. As a result, he currently has 1.0 ha of cherry, 1 ha of plum and 1 ha of apple orchards.*



***SADIG KAMIL OGLU BAKDAMIROV***

*Sadig Kamil oglu Bakdamirov lives in Arzu village of Khachmaz district. He has been a customer of KredAqro NBCO LLC since 2012 and received 8 loans from the organization. Using the loans received from the organization he gradually planted orchards on 2 hectares of land. As a result, he currently has 0.5 ha of apple, 0.5 ha of pear, 0.5 ha of plum and 0.5 ha of hazelnut orchards.*



# GƏNCƏ FİLİALI

*Gəncə filialınn fəaliyyət zonası Gəncə, Samux, Göygöl, Goranboy, Şəmkir, Daşkəsən rayonlarının təsərrüfatlarını əhatə edir. Gəncə iri sənaye mərkəzi olmaqla bərabər, ətraf rayonlarda meyvə tərəvəz istehsalı, maldarlıq, əkinçilik, turizm inkişaf etmişdir. Kreditlərin sahələr üzrə təsnifatı belədir:*

# GANJA BRANCH

*Activity area of the Ganja branch covers the farms in Ganja, Samukh, Goygol, Goranboy, Shamkir, Dashkasan districts. Along with Ganja being a large industrial center, fruit and vegetable production, livestock farming, crop farming, and tourism have developed in the surrounding districts. The classification of loans by areas is as follows:*

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| *Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop)* | *136* | *42.24%* |
| *Ticarət və Xidmət / Trade and Service* | *104* | *32.30%* |
| *İstehlak / Consumer* | *82* | *25.47%* |
| ***Cəmi / Total*** | *322* | *100%* |









***MƏMMƏDOV SƏLİM XUDAYAR OĞLU***

*Səlim bəy Samux rayonu Əhmədbəyli kəndində yaşayır və həmin kənddə heyvandarlıq və pres satışı ilə məşğuldur. Müştəri ilk dəfə 2015-ci ildə təşkilatımızdan 1500 AZN məbləğində kredit götürmüş ümumilikdə 3 dövr müştəri olmuşdur. Səlim bəy həmin krediti heyvanlarının sayını artırmaq və təsərrüfatı genişləndirmək üçün istifadə etmişdir. İlkin kredit təhlilində müştərinin 20 qoyunu 14 quzusu olmuşdur. Müştəri 10 ildən artıqdır ki, bu işlə məşğuldur. Səlim bəy 2022-ci ildə təşkilatımıza yenidən kredit üçün müraciət etmiş və 1500 AZN məbləğində kredit götürmüşdür. 3-cü dövr kredit təhlili zamanı müştərinin artıq 32 qoyunu 10 quzusu olmuşdur. Bundan əlavə olaraq müştəri il ərzində quzu satışını 1 dəfə yox artıq məhsuldarlıqdan asılı olaraq 2 dəfə edir. Həmçinin müştəri əlavə olaraq ev ustalığı ilə məşğul olur. Səlim bəy müştəri olduğu dövrdə təşkilatımızdan götürdüyü kreditləri yalnız təyinatı üzrə sərf etmişdir. Müştəri növbəti dövrlərdə də bizim təşkilatımızdan kredit götürüb təsərrüfatını daha gəlirli hala gətirəcəyini söyləmişdir.*



***SALIM KHUDAYAR OGLU MAMMADOV***

*Mr. Salim Mammadov lives in Ahmadbeyli village of Samukh district, and is engaged in livestock farming and press sales in this village. The customer took his first loan of 1500 AZN from our organization in 2015 and was our customer for a total of 3 periods. Mr. Mammadov used the loan to increase the number of animals and expand the farm. In the preloan analysis, the customer had 20 sheep and 14 lambs. The customer has been in this business for over 10 years. Mr. Mammadov applied to our organization for another loan in 2022 and took a loan of 1500 AZN. During the 3rd period loan analysis, the customer already had 32 sheep and 10 lambs. Moreover, the customer sells lambs not once, but twice a year, depending on productivity. In addition, the customer also is engaged in home repair works. When Mr. Mammadov was our customer, he used the loans he took from our organization only for their intended purpose. According to the customer he will take a loan from our organization in the next period and make his farm more profitable.*



***HƏSƏNOV ARZU MURAD OĞLU***

*Təşkilatımızın artıq 4-cü dövr müştərisi olan Arzu bəy Göygöl rayonu Yeni Qızılca kəndində yaşayır. Müştəri həmin kənddə heyvandarlıqla məşğul olur. Əsasən dana və süd satışı edir. İlk dəfə təşkilatımızdan 2019- cu ildə 1500 AZN, 2020-ci ildə 3000 AZN, 2022-ci ildə 5000 AZN və həmin ildə qalıq borcunu bağlamış 10000 AZN kredit götürmüşdür. İlk kredit təhlilində müştərinin 5 inəyi 3 danası olmuş və sonuncu kredit təhlilində isə 8 inəyi və 8 danası olmuşdur. Müştəri dana və süd satışını daha da artırmışdır. Müştəri 15 ildən artıqdır ki, bu işlə məşğuldur. Arzu bəy götürdüyü kreditləri müntəzəm olaraq təyinatı üzrə xərcləmiş və əlavə olaraq heyvandarlıqla məşğul olduğu tövləni də təmir etdirmişdir. Müştərinin ilkin dövrlərdə yerli cins inəkləri olmuşdur lakin hal-hazırda inəkləri məhsuldarlığına görə Semental inək növünə dəyişdirmişdir.*



***ARZU MURAD OGLU HASANOV***

*Mr. Arzu Hasanov, who is a 4th period customer of our organization, lives in Yeni Kyzilja village of Goygol district. The customer is engaged in livestock farming in this village. He mainly sells beef and milk. He took his first loan of 1500 AZN from our organization in 2019, 3000 AZN in 2020, 5000 AZN in 2022, and he repaid the loan balance and took 10000 AZN in the same year. In the first loan analysis, the customer had 5 cows and 3 calves, and in the last credit analysis, he had 8 cows and 8 calves. The customer has further increased the sale of beef and milk. The customer has been engaged in this business for more than 15 years. Mr. Hasanov regularly spent the loans he took as intended and, in addition, repaired the barn where his livestock is raised. The customer initially had local breed cows but has now changed the cows to Semental cows due to their productivity.*



# ZAQATALA FİLİALI

*Filial Zaqatala Qax Balakən Şəki rayonlarının əhalisiinə maliyyə xidmətləri göstərir. Bölgədə bitkiçilik, meyvəçilik- xüsusən fındıq, qoz, şabalıq istehsalı, habelə meşə təsərrüfatı, turizm və sənaye müəssisələri fəaliyyət göstərir. Kreditlərin sahələr üzrə təsnifatı belədir :*

# ZAGATALA BRANCH

*The branch provides financial services to population of Zagatala, Gakh, Balakan, Sheki districts. Plant growing, fruit growing, in particular hazelnut, walnut, chestnut production, as well as forestry, tourism and industrial enterprises operate in the region. The classification of loans by areas is as follows:*

| **Məhsul / Product** | **Aktiv kredit sayı / Number of active loans** | **%** |
|---|---|---|
| Kənd Təsərrüfatı, Ev və Ailə təsərrüfatı (Heyvandarlıq və Əkinçilik) Agriculture, Household and Family Farming (Livestock and Crop) | 104 | 42.98% |
| Ticarət və Xidmət / Trade and Service | 74 | 30.58% |
| İstehlak / Consumer | 64 | 26.45% |
| **Cəmi / Total** | 242 | 100% |









## *GƏLƏCƏYƏ BAXIŞ*

*Hal-hazırda təşkilat əsasən maliyyə sahəsində mümkün yeniliklərin tətbiqi, müştərilərə xidmət səviyyəsinin yüksəldilməsi, operativliyin artırılması istiqamətində inkişafını davam etdirməkdədir. Həmçinin, ölkədə mövcud iqtisadi aktivliyin davamlı artmasını nəzərə alaraq qarşıdakı 2 il ərzində təşkilat öz kredit portfelinin 30%-dək artırılmasını, o cümlədən filial şəbəkəsinin genişləndirilməsini planlaşdırılır. Bu məqsədlə yerli və xarici investisiyanın imkanlarından yararlanmaq nəzərdə tutur, belə ki, bu bir tərəfdən ölkənin investisiya imkanlarının daxili bazarda istifadəsinə və bununla da ölkə iqtisadiyyatının inkişafına, digər tərəfdən isə təşkilat üçün likvidlik risklərinin minimuma endirilməsinə şərait yaradacaqdır.*

*Müştərilərimizə bundan sonra da daha geniş çeşiddə və daha əlçatan maliyyə xidmətlərinin yüksək keyfiyyətlə təqdim edərək birlikdə böyüməyi hədəfləyir və gələcəyə böyük ümidlərlə baxırıq.*

---

## *VISION OF THE FUTURE*

*Currently, the organization is mainly developing towards introducing possible innovations in the field of finance, improving customer service, and increasing efficiency. Also, in terms of continuous growth of current economic activity in the country, over the next 2 years, the organization is intended to increase its loan portfolio by up to 30%, including the expansion of the branch network. In this regard it is intended to benefit from local and foreign investment opportunities, as this will, on the one hand, enable the use of the country's investment opportunities in the domestic market and thus the development of the country's economy, and on the other hand, minimize liquidity risks for the organization.*

*We aim to grow together by providing our customers with a wider range of and more accessible financial services of high quality, and we feel highly hopeful for the future.*

## Mənfəət və zərər haqqında hesabat

| | Qeyd | 2022-ci il | 2021-ci il |
|---|---|---|---|
| **DAVAM EDƏN FƏALİYYƏT** | | | |
| Faiz gəlirləri | 6 | 1,109,237 | 1,184,779 |
| Faiz xərcləri | 6 | (77,280) | (248,357) |
| ***Xalis faiz gəlirləri*** | | **1,031,957** | **936,422** |
| Gözlənilən kredit zərərləri (GKZ) üzrə ehtiyatların bərpası/(xərclər) | | 729,224 | 653,851 |
| ***GKZ ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri*** | | **1,761,181** | **1,590,273** |
| Xalis komissiya və xidmət gəlirləri/ (xərcləri) | 7 | 135,329 | (73,591) |
| İşçi heyəti üzrə xərclər (-) | 8 | (1,133,187) | (1,170,604) |
| Amortizasiya xərcləri (-) | 9 | (182,256) | (171,435) |
| Ümumi inzibati xərclər (-) | 11 | (715,190) | (1,442,651) |
| Digər gəlirlər/(xərclər) | 10 | (281,219) | (143,328) |
| ***Xalis qeyri-faiz gəlirləri/(xərcləri)*** | | **(2176,523)** | **(3,001,609)** |
| ***Vergitutmadan əvvəl mənfəət (zərər)*** | | **(415,342)** | **(1,411,336)** |
| Mənfəət vergisi | 22 | 699,423 | (27,618) |
| ***Davam edən fəaliyyətdən xalis mənfəət (zərər)*** | | **284,081** | **(1,438,954)** |
| **DAYANDIRILMIŞ FƏALİYYƏT** | | | |
| Dayandırılmış fəaliyyətdən il üzrə vergidən sonra mənfəət/(zərər) | | - | - |
| **İl üzrə xalis mənfəət /(zərər)** | | **284,081** | **(1,438,954)** |

6 mart 2023-cü il tarixində Rəhbərlik adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

**Rəhbərlik adından:**

Hidayət Həsənov
*Direktor*

"KredAqro" BANK OLMAYAN KREDİT TƏŞKİLATI

Xatirə Mehdiyeva
*Baş mühasib*

## Statement of profit or loss

| | Note | 2022 | 2021 |
|---|---|---|---|
| **Continuing operations** | | | |
| Interest income | 6 | 1,109,237 | 1,184,779 |
| Interest expense | 6 | (77,280) | (248,357) |
| *Net interest income* | | **1,031,957** | **936,422** |
| Recovery of provisions for expected credit losses (ECL)/(expenses) | | 729,224 | 653,851 |
| *Net interest income after ECL reserve allocations* | | **1,761,181** | **1,590,273** |
| Net commission and service income/(expenses) | 7 | 135,329 | (73,591) |
| Staff costs (-) | 8 | (1,133,187) | (1,170,604) |
| Depreciation Expenses (-) | 9 | (182,256) | (171,435) |
| General administrative expenses (-) | 11 | (715,190) | (1,442,651) |
| Other income/(expenses) | 10 | (281,219) | (143,328) |
| *Net non-interest income/(expense)* | | **(2176,523)** | **(3,001,609)** |
| **Profit before tax from continuing operations** | | **(415,342)** | **(1,411,336)** |
| Income tax expense | 22 | 699,423 | (27,618) |
| **Profit for the year from continuing operations** | | **284,081** | **(1,438,954)** |
| **Discontinued operations** | | | |
| Profit/(loss) after tax for the year from discontinued operations | | - | - |
| **Profit for the year** | | **284,081** | **(1,438,954)** |

Signed on behalf of the Management on March 6, 2023 and approved for release.

**On behalf of Management:**

**Hidayat Hasanov**
*Director*

"KredAqro" BANK OLMAYAN KREDIT TƏŞKILATI

**Khatira Mehdiyeva**
*Chief Accountant*

## Maliyyə vəziyyəti haqqında hesabat

| | Qeyd | 2022-ci il | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 114,462 | 545,543 | 513,355 |
| Maliyyə institutlarına verilmiş depozitlər | 13 | 446,661 | 1,184 | 1,387,055 |
| Müştərilərə verilmiş kreditlər | 14 | 5,315,705 | 4,324,070 | 6,143,002 |
| Təxirə salınmış vergi aktivləri | 22 | 703,980 | 4,557 | 32,175 |
| Satışa qədər saxlanılan aktivlər | 16 | 1.186,851 | 1,479,129 | 1,599,183 |
| Əmlak, tikili və avadanlıq | 15 | 598,020 | 1,019,170 | 1,390,922 |
| Qeyri-maddi aktivlər | 15 | 39,616 | 77,214 | 96,344 |
| Digər aktivlər | 17 | 416,012 | 171,064 | 182,085 |
| ***Cəmi aktivlər*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |
| **KAPITAL VƏ ÖHDƏLIKLƏR** | | | | |
| **KAPİTAL** | | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | 20 | 452.300 | 452,300 | 452,300 |
| Kapital ehtiyatları | 21 | 1,593,963 | 1,593,963 | 1,593,963 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 2,865,204 | 2,581,123 | 4,020,077 |
| **Təsisçilərin payına düşən kapital** | | **4,911,467** | **4,627,386** | **6,066,340** |
| Qeyri nəzarət payı | | - | - | - |
| ***Cəmi kapital*** | | **4,911,467** | **4,627,386** | **6,066,386** |
| **ÖHDƏLIKLƏR** | | | | |
| Maliyyə institutlarından uzunmüddətli borclar | 19 | 1,207,362 | 1,553,364 | 1,908,468 |
| Əlaqəli tərəflərdən qısamüddətli borclar | 19 | 510,000 | - | |
| Qiymətli kağızlar – istiqrazlar | 19 | 960,940 | - | |
| Əlaqəli tərəflərdən uzunmüddətli borlar | 19 | 850,000 | 850,000 | 2,890,000 |
| Hesablanmış ödəniləcək faizlər | 19 | 13,313 | 161,446 | 175,462 |
| Digər öhdəliklər | 18 | 368,225 | 429,735 | 303,851 |
| ***Cəmi öhdəliklər*** | | **3,909,840** | **2,994,545** | **5,277,781** |
| ***Cəmi kapital və öhdəliklər*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |

## Statement of financial position

| | Note | 2022 | 2021 | 2020 |
|---|---|---|---|---|
| **ASSETS** | | | | |
| Cash and cash equivalents | 12 | 114,462 | 545,543 | 513,355 |
| Deposits given to financial institutions | 13 | 446,661 | 1,184 | 1,387,055 |
| Loans granted to customers | 14 | 5,315,705 | 4,324,070 | 6,143,002 |
| Deferred tax assets | 22 | 703,980 | 4,557 | 32,175 |
| Held-for-sale assets | 16 | 1.186,851 | 1,479,129 | 1,599,183 |
| Property, plant and equipment | 15 | 598,020 | 1,019,170 | 1,390,922 |
| Intangible assets | 15 | 39,616 | 77,214 | 96,344 |
| Other assets | 17 | 416,012 | 171,064 | 182,085 |
| ***Total assets*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |
| **EQUITY AND LIABILITIES** | | | | |
| **EQUITY** | | | | |
| Paid nominal (Charter) capital | 20 | 452.300 | 452,300 | 452,300 |
| Capital reserves | 21 | 1,593,963 | 1,593,963 | 1,593,963 |
| Retained earnings (unpaid losses) | | 2,865,204 | 2,581,123 | 4,020,077 |
| **Capital per share of the founders** | | **4,911,467** | **4,627,386** | **6,066,340** |
| Non-controlling interest | | - | - | - |
| ***Total equity*** | | **4,911,467** | **4,627,386** | **6,066,386** |
| **LIABILITIES** | | | | |
| Long-term debts from financial institutions | 19 | 1,207,362 | 1,553,364 | 1,908,468 |
| Short-term liabilities from related parties | 19 | 510,000 | - | |
| Securities – bonds | 19 | 960,940 | - | |
| Long-term loans from related parties | 19 | 850,000 | 850,000 | 2,890,000 |
| Accrued interest payable | 19 | 13,313 | 161,446 | 175,462 |
| Other liabilities | 18 | 368,225 | 429,735 | 303,851 |
| ***Total liabilities*** | | **3,909,840** | **2,994,545** | **5,277,781** |
| ***Total equity and liabilities*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |